**UDC:** 070.; 327.
**LBC:** 76.0; 76.01; 76.02
**MJ №** 272
10.33864/2617-751X.2025.v8.i2.120-128

# Political Journalism in the Azerbaijani Media System: History and Modernity

**Kenan Novruzov***

**Abstract.** Journalism manifests itself in its most diverse areas. This is due to its capabilities and functions. Thus, along with public opinion, it also gives direction to development in one form or another. From this point of view, journalism is everywhere. Journalism is widely used in the field of politics. This manifests itself in its own unique forms. In a general sense, the main purpose of political journalism is to express the main policy, including the ongoing geopolitical processes. For this, genres and formats of journalism are widely used. The scientific article discusses the relevance of political journalism and its characteristic features.

**Keywords:** media, journalism, politics, analysis, public opinion

* Doctoral student at the Department of New Media and Communication Theories, Faculty of Journalism, BSU; Baku, Azerbaijan
E-mail: n.kenan99@mail.ru
https://orcid.org/0009-0003-3220-7276

**To cite this article:** Novruzov, K. [2025]. Political Journalism in the Azerbaijani Media System: History and Modernity. *“Metafizika” journal, 8*(2), pp.120-128.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.120-128

***Article history:***
*Received: 23.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.; 327.
**ББК:** 76.0; 76.01; 76.02
**MJ №** 272
10.33864/2617-751X.2025.v8.i2.120-128

# Политическая Журналистика в Азербайджанской Медиасистеме: История и Современность

**Кенан Новрузов***

**Абстракт.** Журналистика проявляет себя в самых разных своих областях. Это обусловлено ее возможностями и функциями. Таким образом, наряду с общественным мнением, она также дает направление развитию в той или иной форме. С этой точки зрения журналистика есть везде. Журналистика широко используется в сфере политики. Это проявляется в ее собственных уникальных формах. В общем смысле, основная цель политической журналистики - выразить основную политику, в том числе и происходящие геополитические процессы. Для этого широко используются жанры и форматы журналистики.

**Ключевые слова:** СМИ, журналистика, политика, анализ, общественное мнение

* Докторант кафедры новых медиа и коммуникативных теорий факультета журналистики Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: n.kenan99@mail.ru
https://orcid.org/0009-0003-3220-7276

**Цитировать статью:** Новрузов, К. [2025]. Политическая Журналистика в Азербайджанской Медиасистеме: История и Современность. *Журнал «Metafizika», 8(2),* с.120-128.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.120-128

***История статьи:***
*Статья поступила в редакцию: 23.01.2025*
*Отправлена на доработку: 25.02.2025*
*Принята для печати: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070.; 327.
**KBT:** 76.0; 76.01; 76.02
**MJ №** 272
10.33864/2617-751X.2025.v8.i2.120-128

# Azərbaycan Media Sistemində Siyasi Publisistika: Tarix və Müasirlik

**Kənan Novruzov[*]**

**Abstrakt.** Publisistika özünü ən müxtəlif sahələrində göstərir. Bu, onun imkanları və funksiyaları ilə bağlıdır. Belə ki, publisistika ictimai rəy yaratmaqla yanaşı, həm də cəmiyyətin inkişafına bu və ya digər formada istiqamət verir. Bu baxımdan publisistika əslində hər yerdə var. Siyasət sahəsində də publisistikadan geniş istifadə olunur. Bu, özünü müxtəlif formalarda göstərir. Ümumi mənada isə siyasi publisistikanın əsas məqsədi siyasəti, o cümlədən baş verməkdə olan geosiyasi prosesləri ifadə etməkdir. Bunun üçün publisistikanın müxtəlif janr və formatlarından geniş istifadə olunur. Elmi məqalədə siyasi publisistikanın aktuallığından və onun səciyyəvi xüsusiyyətlərindən geniş söz açılıb.

**Açar sözlər:** media, publisistika, siyasət, təhlil, ictimai rəy

[*] Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin “Yeni media və kommuniksiya nəzəriyyələri kafedrası”nın doktorantı; Bakı, Azərbaycan
E-mail: n.kenan99@mail.ru
https://orcid.org/0009-0003-3220-7276

**Məqaləyə istinad:** Novruzov, K. [2025] Azərbaycan Media Sistemində Siyasi Publisistika: Tarix və Müasirlik. *“Metafizika” jurnalı, 8*(2), səh.120-128.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.120-128

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 23.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Siyasət ən qədim sahələrdən biri hesab olunur. Amma o, heç vxt təkbaşına mövcud olmayıb. Siyasəti ifadə etmək üçün həmişə sözə ehtiyac olub. Hələ qədim zamanlardan etibarən siyasətçilər insanları öz ətraflarında birləşdirmək, habelə tərəfdarlarını inandırmaq üçün sözdən istifadə edirlər. Çünki ictimi şüuru məhzlə sözlə yaratmaq mümkündür. Təsadüfi deyil ki, ən qədim siyasətçilər həm də yaxşı natiq olublar. Onlara misal olaraq, Aristoteli, Sokratı, Platonu göstərmək olar.

Siyasi publisistika bu gün də aktualdır. Planetdə çox ciddi siyasi hadisələrin, böhranların baş verdiyi bir vaxtda dünya liderləri məhz söz vasitəsilə öz ideyalarını həyata keçirməyə çalışırlar. Bu gün dünyada tanınan, sayılıb- seçilən liderlərin bir çoxu özlərinin güclü natiqlik qabiliyyətləri ilə də seçilirlər. Onlara nümunə olaraq Ümumilli Lider Heydər Əliyevi, Azərbaycan Prezidenti İlham Əliyevi, Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanı və başqalarını göstərmək olar. “*Şübhəsiz ki, Heydər Əliyev öz dövrünün ən böyük natiqi idi. Ulu öndər tarixə böyük siyasi lider, dövlət xadimi kimi düşməklə yanaşı, XX əsr Azərbaycan siyasi natiqliyinin, nitq mədəniyyətinin təşəkkül tapmasında, inkişafında da əvəzsiz rola malikdir*” [Ədəbiyyat və incəsənət jurnalı, 2023]. Həmçinin qeyd etdiyimiz kimi, Azərbaycan və Türkiyə liderləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan da bu gün dünyada çox ciddi natiq kimi tanınırlar. Bunu onların hər çıxışlarında, müsahibələrində hiss etmək mümkündür. Sözsüz ki, adı çəkilən dövlət başçılarının daxili və xarici siyasətdəki uğurlarının arxasında həm də bu məqam dayanır.

Ərdoğanın yazdığı “*Daha ədalətli dünya mümkündür*” kitabı siyasi publisistikanın ən yaxşı nümunələrindən biri kimi qiymətləndirilə bilər. O, sözügedən kitabda dünyadakı böhranlara həm də publisisti kimi toxunmuş, ayrı-ayrı məqamları xüsusilə qabartmaqla oxucunun diqqətini çəkməyə çalışmışdır.

Beləliklə, əminliklə demək olar ki, bu gün siyasi publisistika cəmiyyətin ictimai – siyasi həyatında mühüm rol oynamaqla ictimai fikrin yaradılmasında müstəsna əhəmiyyət kəsb edir.

## 2.Azərbaycanda siyasi publisistikanın tarixi

Müasir Azərbaycan gənc dövlət olmasına baxmayaraq, tarixi köklərə sahibdir. Ən qədim dövlərlərdən bu günə kimi Azərbaycan müxtəlif siyasi proseslərlə qarşılaşmış, sınanmışdır. Bu da öz növbəsində zaman- zaman diplomatik danışıqları zəruri etmişdir. Buna ən bariz nümunə olaraq Azərbaycanın ilk qadın diplomatı sayılan Sara Xatunun fəaliyyətini göstərmək olar. Belə ki, hələ XV əsrdə- Ağqoyunlu dövləti hökmdarlarında olan Uzun Həsən, demək olar, bir çox xarici səfərlərə anası Sara Xatunu göndərirdi. “Azərbaycan diplomatiyasının çiçəklənməsi orta əsrlərdə, xüsusilə də Ağqoyunlular dövləti ilə başladı. Uzun Həsənin dövründə Azərbaycanın Şərq-Qərb əlaqələrindəki rolu daha da artdı.

Azərbaycanın ənənəvi əlaqələr saxladığı Şərq ölkələrindən başqa Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratdı" [Xalq cəbhəsi qəzeti, 2014].

XIX əsrdən etibarən isə Azərbaycanda diplomatik natiqliyin, siyasi jurnalistikanın inkişafı istiqamətində yeni mərhələnin əsas qoyuldu. Bu, 1875-ci ildə Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" ilə milli mətbuatın əsasının qoyulması ilə bağlıdır. Əslində "Əkinçi" qəzetinin nəşrə başlaması özü də bilavasitə siyasi səbəblərlə bağlı olub. Həsən bəy qəzet yaratmaq təşəbbüsünü əkin- biçin məsələləri ilə əlaqələndirirdi. Guya ki, o, insanlara əkin- biçini öyrədəcəkdi. Əlbəttə, belə bir bəhanəyə ehtiyac var idi. Əks halda Zərdabinin arzusu ürəyində qalacaqdı. O vaxtkı çar rejimi və sərt sezura Zərdabinin siyasi fəaliyyətlə məşğul olmasına iczə verməzdi. Buna baxmayaraq, "Əkinçi" öz səhifələrində insan hüquqları problemini ön plana çəkir, insanları maarifləndirməyə çalışırdı. Nəşr azad söz problemini ortaya qoyurdu. "Azad söz və fikir sərbəstliyinin mövcud olmadığını üstüörtülü şəkildə çarizmin yeriltdiyi siyasətlə bağlayan "Əkinçi"lər köhnə qaydaların dəyişdirilməsini də səbəblərdən biri kimi görürdü. Zərdabi və məsləkdaşlarının qəzet səhifələrində dərc etdirdikləri yazıların bir qismi dini fanatizm və mövhumata həsr olunub". [Aşırlı, 2023].

"Əkinçi" insanları maarifləndirməyə çalışmaqla yanaşı, həm də o vaxt üçün daşlaşmış steorotipləri qırmağa çalışırdı. Bu mənada "Əkinçi"ni həm də Azərbaycan siyasi jurnalistikasının ilk nümunəsi hesab etmək olar.

1877-ci ildə, 56 nömrəsi çıxandan sonra "Əkinçi"nin fəaliyyətinin dayandırılması da əslində həm də siyasi təzyiqlərlə bağlı idi. Buna baxmayaraq, "Əkinçi"dən sonra onun yolunu davam etdirən nəşrlər, o cümlədən "Həyat", "Tazə həyat", "İqbal" kimi mətbu orqanlar siyasi publisistik istiqaməti davam etdirdilər. Həmin qəzetlər birbaşa və ya dolayası yolla siyasətə müdaxilə edirdilər. Məsələn, "İrşad" qəzeti "Hürriyət, müsavat, ədalət" şüarı ilə nəşr olunmaqla birbaşa olaraq öz qayəsini ortaya qoyurdu.

Azərbaycanda siyasi publisistikanın inkişafından danışarkən, sözsüz ki, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü xüsusi qeyd etməliyik. Belə ki, 1918-ci ildən 1920-ci ilə qədər dvam edən cümhuriyyət dövründəki siyasi proseslər mətbuatda da öz əksini tapırdı. Həmin dövrün əsas siyasi xadimləri, o cümlədən AXC-nin banisi Məhəmməd Əmin Rəsulzadə, Əlimardan bəy Topçubaçov, Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli və digərləri həm də görkəmli publisist və jurnalist idilər. Adı çəkilən siyasi xadimlər öz ideyalarını və ideallarını məhz mətbuat vasitəsilə reallaşdırmağa çalışırdılar. Onlar mətbuatın cəmiyyət həyatındakı rolunu yaxşı başa düşür, yüksək qiymətləndirirdilər. Məsələn, Rəsulzadənin 1911-ci ildə yazdığı "Mətbuat azadlığı" məqaləsi və

həmin məqalədəki fikirlə onun “IV hakimiyyət” yaxından bələd olmasını bir daha göstərir.

1920-ci ildən sonra başlanan sovet hakimiyyəti dövründə mətbuata azadlıq verilməmişdi. Buna baxmayaraq, mətbuat yenə də siyasi fəaliyyətlə olurdu. SSRİ-nin qurucusu Vladimir Lenin özünün “Hardan başlamalı?” məqaləsində yazırdı ki, mətbuatın əsas funksiyası təbliğat, təşviqat və təşkilatdır. Məlum olduğu kimi, həmin dövrdə ölkədə birpartiyalı sistem hökm sürürdü. Mətbuatın əsas işi də məhz vahid partiyanın fəaliyyətini təbliğ etmək idi.

Sovet İttifaqı dağılandan sonra digər ittifaq ölkələrində olduğu kimi, Azərbaycanda da siyasi vəziyyət dəyişdi. Bu da özünü “güzgü effekti” kimi mətbuatda göstərdi. 1990-cı illərdən etibarən Azərbaycan jurnalistikasında yeni mənzərə yarandı. “Yeni Müsavat”, “525-ci qəzet”, “Şərq” “Ayna- Zerkolo” kimi nəşrlər bir – birilərinin ardınca Azərbaycan mətbuatına yeni nəfəs gətirdilər.

1998-ci senzuranın ləğvi Azərbaycanın mediasının daha səmərəli və məhsuldar fəaliyyətinə şərait yaratdı. Professor Allahverdi Məmmədlinin dediyi kimi, senzuranın ləğvinin mətbuata gətirdiyi yeniliklər çox böyükdür: “İlk növbədə, senzuranın olmaması mətbuata azadlıq verdi. Söz, mətbuat, fikir azadlığı yarandı, plüralizm inkişaf etdi. Daha sonra 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Bu Qanunun da həm jurnalistlərin hüquqları, vəzifələri, məsuliyyəti öz əksini tapmışdı. Yəni, ondan sonra inkişaf başladı və mətbuata çox böyük üstünlüklər verildi” [İki sahil qəzeti, 2021].

Senzuranın ləğvinin və ümumilikdə mətbuatın inkişafı istiqamətində atılan addımların əsas nəticələrindən biri, sözsüz ki, ölkədə tipoloji baxımdan fərqli nəşrlərin fəaliyyətin göstərməsidir. İqtidar, müstəqil və müxalif nəşrlər özlərinin fəaliyyəti ilə siyasi proseslərə bu və ya digər formada toxunurlar. “Müasir günlərimizdə Azərbaycan mətbuatında iqtidar, müxalifət, müstəqil istiqamətlərə ayrılan və cəmiyyətdə özünü göstərən bu bölünmələrə görə özünün informasiya siyasətini formalaşdıran qəzet bolluğu var. İqtidar düşərgəsində özünü göstərən “Xalq qəzeti”, “Azərbaycan”, “Respublika”, “Səs”, “İki sahil”, “Yeni təfəkkür” və s., müxalif düşərgəyə mənsub “Azadlıq”, “Yeni müsavat”, “Bizim yol”, “Nota” və s., müstəqil mətbuat nümunələrinə aid “525-ci qəzet”, “Ayna”, “Zerkalo”, “Exo”, “Üç nöqtə”, “Ekspress” və s. tipli qəzetlərin hər bir qrupunun öz informasiya siyasəti mövcuddur. Bu qəzetlər qrupunda fəaliyyət göstərən jurnalist və redaksiya kollektivi hər hansı bir informasiyaya, xəbərə formalaşan informasiya siyasəti bucağından yanaşır. Məsələn, Azərbaycanın müasir inkişaf tempi iqtidar qəzetlərində yüksək pafosla təqdim olunduğu kimi, müxalifətyönlü qəzetlərdə mütləq nöqsanlı cəhətləri ilə, müstəqil qəzetlərdə isə mümkün qədər faktın olduğu kimi təqdimi ilə oxucuya çatdırılır”. [525-ci qəzet, 2012].

**3.Müasir dövrdə Azərbaycan siyasi publisistikası**

Müasir dövrdə də publisistika bilavasitə siyasətlə bağlıdır. Əslində siyasət və publisistika bir – birinə qarşılıqlı təsir edir. Belə ki, birinci ikinci üçün mövzuya çevrilir. İkinci də birinciyə yön verir, ona təsir edir. Ümumiyyətlə, "siyasi jurnalistikaya politologiyanın vasitələrindən biri kimi də baxmaq olar, lakin onu konkret olara dövlət orqanlarının, siyasi sistem institutlarının və sosial- siyasi proseslərin idarəedilməsində iştirak edən vacib faktor kimi də qiymətləndirmək mümkündür" [Rəhimzadə, 2017].

Müasir dövrdə Azərbaycanda siyasi publisistika kifayət qədər inkişaf edib. Bunun obyektiv və subyektiv səbəbləri var. Öncə onu deməliyik ki, bu, məhz demokratiya, o cümlədən mətbuat üçün yaradılan azad şərait, söz və ifadə azadlığının qorunması ilə bağlıdır. "Bu gün Azərbaycan söz, fikir və mətbuat azadlığının məksimum səviyyədə təminatı baxımından MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur desək, məncə, yanılmarıq. Ölkəmizdə insan hüquqlarının, siyasi plüralizmin, vətəndaş cəmiyyətinin mövcudluğu öz təsdiqini həm də demokratik institut kimi formalaşmış kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətin, onların inkişafı üçün yaradılmış hüquqi təminatda tapır" [Rəhimzadə, 2027]. İkinci bir tərəfdən jurnalistika ilə siyasət arasındakı qarşılıqlı əlaqəni nəzərə alsaq deməliyik ki, son dövrlər bu sahənin xüsusi aktuallaşmasının bir səbəbi də regionda və dünyada baş verən siyasi və geosiyasi proseslərlə bağlıdır. Azərbaycanın Prezident İlham Əliyevin mahir və uzaqgörən siyasəti nəticəsində dünyanın qabaqcıl ölkələrindən birinə çevrilməsi, aparıcı aktorlardan olması mətbuat işçilərinin siyasətə biganə yanaşmasına imkan vermir. Əksinə, siyasi jurnalistika daha da populyarlaşır, publisistlər arasında bu sahəyə maraq artır.

Bu gün Azərbaycan mətbuatında publisistikanın ən çox inkişaf etmiş qolu, bəlkə də, siyasi jurnalistikadır. Əlbəttə, bu heç də təsadüfi deyil. Birbaşa olaraq yuxarıda qeyd etdiyimiz məqamlarla bağlıdır.

"Xəbər mediasının gücünə inananlardan və onu qızğın müdafiə edənlərdən tam fərqli olaraq, digər bir qisim alim mediaya yalnız və yalnız "siyasi oyunun piyadası" kimi yanaşaraq onun xarici siyasət həyata keçirmək üçün vasitə olduğunu yazır" [1] . Bu fikrin özü də siyasi jurnalistikanın müasir dövrdə niyə bu qədər aktual olduğunu bir daha aydın göstərir.

Bu gün tanınmış media subyektlərinin, demək olar, hər birinin ayrıca siyasət redaksiyası var. Üstəlik, bir çox media qurumlarında xüsusi "siyasi analitik" ştatı var. Onların əsas işi tabe olduqları media qurumları üçün gündəlik siyasi proseslərlə bağlı siyasi şərhlər hazırlamaqdır. Məsələn, "Report" İnformasiya Agentliyində Sədrəddin Soltanla Azər Nuriyev, "Yeni Müsavat" media qrupunda Elçin Xalidbəyli, "Sputnik Azərbaycan"da İlqar Vəlizadə, "Globalinfo.az" saytında Turan Rzayev məhz bu işlə bağlıdır. Onlar həm

ölkənin daxili və xarici siyasəti ilə bağlı yenilikləri, həm də regionda və dünyada baş verən hadisələri operativ təhlil edirlər.

**4.Nəticə**

Tədqiqatdan da göründüyü kimi, siyasi publisistika köklü tarixə malikdir. Siyasi publisistikanın inkişafı, demək olar, bütün ölkələr üçün xaraktrikdir. Çünki siyasət və diplomatiya heç bir dövlət üçün istisna deyil. Hər bir ölkənin daxili və xarici siyasəti ilə ancaq sözlə ifadə oluna bilər.

Publisistika olmadan siyasi prosesləri cəmiyyət üçün aydınlaşdırmaq, onu təqdim və izah mümkünsüz olur. Həmçinin nəzərə almaq lazımdır ki, jurnalistika siyasəti ifadə etməklə yanaşı, ona təsir də göstərir. "Təsir göstərmək o deməkdir ki, kiminsə məqsədi nəticəyə gətirib çıxarır" [Lichter S.Robert & Noyes E.Richard, 1996]. Baş verən bir çox siyasi prosesin, o cümlədən seçkilərin, iğtişaşların, hakimiyyət çevrilişlərinin arxasında məhz publisistika dayanır.

Bu, siyasi publisisikanın aktuallığını qoruyur.

Jurnalistikada baş verən ümumi dəyişikliklər, əlbəttə, siyasi publisistika üçün də istisna deyil. Gələcəkdə informasiya kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı olaraq media mühitində müəyyən dəyişikliklərin müşahidə olunması mümkündür. Bununla belə siyasi publisistika ciddi təsir mexanizmi kimi öz gücünü saxamağa davam edəcək.

## ƏDƏBİYYAT


1. Bəşirli, A. (2007). *Azad mətbuat çərçivəsində*. Bakı, 224 s., s.19.
2. Aşırlı, A. (2023). *Azərbaycan mətbuat tarixi*. Bakı, Elm və Təhsil, 349 s., s.38.
3. Heydər Əliyev öz dövrünün ən böyük natiqi idi. (2023, May 17). *Ədəbiyyat və incəsənət*. Retrieved from https://edebiyyatveincesenet.az/ru/goez-llik/item/8115-heydaer-aeliyev-oez-doevrunun-aen-boeyuk-natizhi-idi
4. Senzurasız mətbuatımız 23 yaşında. (2021, Avgust 5). *İkisahil.az*. Retrieved from https://tv.ikisahil.az/post/239052-senzurasiz-metbuatimiz-23-yashinda
5. Qəzetin informasiya siyasəti və jurnalistin fərdi yaradıcılıq prinsipləri. (2012, Fevral 7). *Anl.az*. Retrieved from https://www.anl.az/down/meqale/525/2012/fevral/230114.htm
6. Azərbaycanın ilk qadın diplomatı. (2014, Fevral 4). *Anl.az*. Retrieved from https://www.anl.az/down/meqale/xalqcebhesi/2014/fevral/350251.htm
7. Lichter, S. R., & Noyes, E. R. (1996). *Good intention makes bad news*. Rowman & Littlefield Publishers Inc.
8. Rəhimzadə, V. (2017). *Maraqlı və dəyərli əsər haqqında.*

## REFERENCES

1. Bashirli, A. (2007). *Within the framework of free press*. Baku, 224 p., p.19. (in Azerbaijani)
2. Ashirli, A. (2023). *History of the Azerbaijani press*. Baku, Elm ve Tehsil, 349 p., p.38. (in Azerbaijani)
3. Heydar Aliyev was the greatest orator of his time. (2023, May 17). *Edebiyyat ve Incesenet*. Retrieved from https://edebiyyatveincesenet.az/ru/goez-llik/item/8115-heydaer-aeliyev-oez-doevrunun-aen-boeyuk-natizhi-idi (in Azerbaijani)
4. Our uncensored press turns 23 years old. (2021, August 5). *Ikisahil.az*. Retrieved from https://tv.ikisahil.az/post/239052-senzurasiz-metbuatimiz-23-yashinda (in Azerbaijani)
5. The newspaper's information policy and the journalist's individual creativity principles. (2012, February 7). *Anl.az*. Retrieved from https://www.anl.az/down/meqale/525/2012/fevral/230114.htm (in Azerbaijani)
6. Azerbaijan's first female diplomat. (2014, February 4). *Anl.az*. Retrieved from https://www.anl.az/down/meqale/xalqcebhesi/2014/fevral/350251.htm (in Azerbaijani)
7. Lichter, S. R., & Noyes, E. R. (1996). *Good intention makes bad news*. Rowman & Littlefield Publishers Inc. (in English)
8. Rehimzade, V. (2017). *About an interesting and valuable work*. (in Azerbaijani)